UOT- 327.5

RAVİD RAMAZANOV
Bakı Dövlət Universiteti
Dünya siyasəti ixtisası üzrə II kurs magistrant
ravidramazanov327@gmail.com

RUSİYA FEDERASİYASININ KRIMI İLHAQI. UKRAYNANIN QƏRBYÖNÜMLÜ SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/205-210

Məqalə adından göründüyü kimi Rusiya - Ukrayna müharibəsinən bəhs olunur. Məqalədə müharibənin qonşu dövlətlərin təcavüzkar hərəkətləri qarşısında dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanması problemindən Rusiyanın Krımı ilhaq etməsi və Ukraynanın şərqindəki separatçı hərəkatları dəstəkləməsi müəyyən edilmiş beynəlxalq hüquq normalarının və sərhədlərin pozulmasından. Münaqişənin Rusiya ilə Qərb dünyası arasında münasibətləri gərginləşdirməsindən, gərginliyin artmasına və diplomatik əlaqələrin korlanmasına gətirib çıxarmasından, həmçinin, Rusiya-Ukrayna müharibəsinin qlobal təhlükəsizlik üçün, xüsusən də silahların yayılması, enerji təhlükəsizliyi və beynəlxalq institutların dayanıqlılığı kontekstində daha geniş təsirlərindən bəhs olunur.

Acar sözlər: Münaqişə, müharibə, danışıqlar, böhran, beynəlxalq hüquq, qarşıdurma, təcavüz, sanksiya, qlobal enerji.

Giriş. Geosiyasi nöqteyi-nəzərdən Rusiya öz milli maraqlarına nail olmaq və qlobal arenada fəal iştirak arasında nüanslı tarazlığı bacarıqla idarə edib. 2014-cü ildə Ukrayna böhranı kontekstində baş verən Krımın ilhaqı aktı Rusiya ilə Qərb ölkələri arasında birbaşa qarşıdurmaya səbəb oldu. Bu münaqişə sonradan sanksiyaların tətbiqi və diplomatik əlaqələrin korlanması ilə nəticələndi. Ukraynanın şərqində, yəni Donetsk və Luqansk bölgələrində davam edən müharibə Rusiyanın bölgədəki mövcudluğu ilə bağlı mürəkkəbliyi və mübahisələri işıqlandırmağa xidmət edir. İqtisadi nöqteyi-nəzərdən Rusiya qlobal enerji bazarlarında mühüm rolunu davam etdirir, əsasən də böyük neft və təbii qaz yataqları hesabına qərb ölkələrinə iqtisadi təsirlər edir. Buna baxmayaraq, Rusiya iqtisadiyyatı bir çox maneələrlə, o cümlədən neft qiymətlərindəki dəyişkənlik, iqtisadi sanksiyalar və korrupsiya kimi daxili çətinliklərlə üzləşməkdədir.

Rusiya ilə Ukrayna arasındakı gərginliyin tarixi əslində orta əsrlərə gedib çıxır. Böhranlı, lakin ortaq tarixə görə Putin tez-tez iki ölkəni "bir xalq" kimi təsvir edir. Son 200 il ərzində Krım Rusiyanın nəzarəti altında olub. Lakin 1954-cü ildə Moskva vilayəti Ukraynaya hədiyyə edib. Etnik ruslar bu addımın "tarixi səhv" olduğunu deyirlər (7, s.125). Krım tatarları isə onların bir vaxtlar Ukraynada çoxluq təşkil etdiklərini diqqətə çəkirlər. Onlar adadan 1944-cü ildə nasist işğalçılarla əməkdaşlıq etdiklərinə görə Stalin tərəfindən deportasiya edilmişdilər. Bu gün Rusiya isə Sovet İttifaqının torpaqlarını öz nəzarətində saxlamaq və əvvəlki hakimiyyətini bərpa etmək üçün Ukraynanın hələ də öz ərazisi olduğunu iddia edir. Bu gün Rusiya prezidenti Vladimir Putin bunu tez-tez "bir xalq" deyərək nümayiş etdirir. 1991-ci ildə Sovet İttifaqından sonra Rusiya, Ukrayna və Belarus Müstəqil Dövlətlər Birliyini yaratdılar. Rusiyanın bu ittifaqla məqsədi öz təsirini saxlamaq və ölkələri özünə qaytarmaq idi. Lakin Belarus Moskva ilə sıx ittifaq qurduğu halda, Ukrayna getdikcə daha çox Qərbə üz tutdu.

Rusiya Federasiyası Ukrayna ilə həmsərhəd olan dövlətlər arasında ən mühüm tərəfdaş mövqeyinə malikdir. Ukraynanın xarici siyasətinin əsas istiqaməti onun Moskva ilə münasibətlərində idi, o dərəcədə ki, Ukraynanın xarici siyasəti ilə bağlı hər bir qərar ilk növbədə onun Rusiya ilə əlaqələrinin xarakterini müəyyən etməklə bağlı olurdu. Bunun əsas səbəbi Ukraynanın coğrafi və geosiyasi şəraiti, iki xalq arasında davamlı tarixi, iqtisadi və mədəni əlaqələrin keçmişə dayanması idi. Bundan əlavə, ikitərəfli münasibətlərdə Rusiyanın mahiyyət etibarı ilə hakim mövqeyi də bu nəticəyə kömək edirdi. Üstəlik, bu vəziyyət Avropa İttifaqının Şərqi Avropada Rusiya ilə ilkin müttəfiqliyi səbəbindən yaranmışdı, Ukrayna ilk növbədə Aİ tərəfindən onun Rusiya ilə assosiasiyası kontekstində dəyərləndirilir. Ukraynanın Rusiya ilə münasibətlərinin keyfiyyəti onun Berlin, Brüssel və xüsusilə Pa-

ris kimi əsas Avropa paytaxtları tərəfindən qəbul edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Birləşmiş Ştatlar bu ssenaridə fərqli perspektiv nümayiş etdirir, çünki Ukraynanın təhlükəsizlik siyasətinin Rusiyadan müstəqil olmasına önəm verir. Lakin diqqət çəkən məqam odur ki, ABŞ da Ukraynanı ilk növbədə Rusiya ilə əlaqələri çərçivəsində qəbul edir. Bununla belə, aydındır ki, Ukrayna müstəqil dövlət kimi on illik fəaliyyətinə baxmayaraq, yaxın gələcəkdə NATO və ya Avropa Birliyinə üzv olmaq perspektivinə malik deyildir. Bu inkişaf Moskva ilə Kiyev arasındakı əlaqələrin əhəmiyyətini daha da artırırdı.

2014-cü ildə Rusiya Federasiyasının Ukraynaya qarşı həyata keçirdiyi hücum və daha sonra Krım yarımadasının işğalı beynəlxalq hüququ pozmaqla yanaşı, Ukraynanın ərazi bütövlüyü diqqətə alınmadı. 21-ci əsrdə Avropa qitəsində bir dövlət başqa bir suveren dövlətə qarşı hərbi güc tətbiq edərək ərazisinin bir hissəsini işğal edib və ilhaq etmişdir, bu açıq-aşkar beynəlxalq hüququn pozulması idi.

Rusiya Krımda hökmranlıq etməklə beynəlxalq ictimaiyyətə meydan oxumağa və özünü açıq şəkildə beynəlxalq qayda və normaları diqqətə almadığını göstərmiş oldu.

2014-cü ilin fevral ayında Rusiya Federasiyasının hərbi birləşmələri həm Rusiya vətəndaşlarından, həm də yerli əməkdaşlardan ibarət qeyri-ənənəvi silahlı dəstələrin dəstəklədiyi qruplaşmalar vasitəsilə Krımı ələ keçirdilər. Ukrayna hakimiyyətinin buna kifayət qədər hazır olmadığı müşahidə olundu. Fevralın sonunda Kiyevdə baş verən hakimiyyət böhranı nəticəsində iflic vəziyyətinə düşən Ukrayna hökuməti Krımda baş verən hadisələrə heyrətlə baxırdı (4. s.73). Rus qoşunlarının artıq Sevastopoldakı Rusiyanın Qara dəniz donanma bazasında olması Kremlin işini asanlaşdırırdı. Bir neçə saat ərzində yarımadanın mühüm strateji yerləri Rusiya qüvvələrinin nəzarəti altına keçdi, Ukrayna hərbi birləşmələri və gəmiləri isə onların kazarma və bazalarında bloklandı. Rusiya xüsusi əməliyyat qoşunları Krım Parlamentinin binasını zəbt edib və Krım deputatlarını təcili iclas keçirməyə, Krımın "müstəqilliyini" elan etməyə və "Rusiyaya birləşmə" ilə bağlı "referendum"a səs verməyə məcbur etmişdir. Bütün bu hadisələr Krımda Rusiyanın əleyhdarları üçün təhdid və çəkindirmə mühiti yaratdı, bu barədə aşağıda müzakirə edəcəyik.

Krımda Rusiya hərbi qüvvələrinin tətbiqi ilə bağlı Rusiya prezidenti Vladimir Putinin sözləri kifayət qədər açıqdır: "Bəli, mən bunu gizlətməyəcəyəm, Krım xalqının ifadə azadlığını təmin etmək üçün bu barədə əvvəllər danışmışam. biz, səsvermə prosesinə, silahlı qüvvələrə müdaxilə etməyəcəyik". Biz öz qoşunlarımızdan istifadə etdik..." (2014-cü ilin martında Krımda keçirilən "referendum" zamanı). Nəticədə nəinki aşağıda sadalanan bəzi beynəlxalq müqavilələr, həmçinin beynəlxalq hüququn əsaslandığı prinsiplər də pozulmuşdur. Müvafiq olaraq, Rusiyanın Ukraynaya qarşı hərbi güc tətbiq etməsi və Krımın işğalı Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini və Helsinki Yekun Aktının (1975) beynəlxalq arenada dövlətlər arasında münasibətləri müəyyən edən on prinsipinin hər birini pozur. Bundan başqa, Kremlin Rusiyanın Ukrayna dövlətinin ərazi bütövlüyünü tanıdığı və hətta zəmanət verdiyi beynəlxalq müqavilələri də pozdu.

Bu kontekstdə Rusiya əməliyyatının ilk günlərindən BMT Baş Assambleyası 2014-cü il martın 16-da Krımda keçirilən "referendumun" qeyri-qanuni olduğunu vurğulamış, Ukraynanın Krımı işğal etməsi beynəlxalq hüququn əsas normalarının nə qədər vacib olduğunu bir daha xatırlatmışdır.. Heç bir dövlətin böyük və ya kiçik olmasından asılı olmayaraq, beynəlxalq öhdəliklərini pozmaq, qonşularına hücum etmək, digər dövlətlərin ərazisini birtərəfli qaydada ilhaq etmək və beynəlxalq birlik tərəfindən tanınan sərhədləri yenidən formalaşdırmaq hüququ yoxdur. Beynəlxalq ictimaiyyət Ukraynadakı hadisələrə cəld reaksiya verdiyindən Rusiyanın Krıma və Şərqi Ukraynaya təcavüzünə asanlıqla göz yuma bilməzdi. Bu cür münasibət təkcə hücumu təşviq etmir, həm də müəyyən prinsiplər üzərində qurulmuş və hər bir dövlət tərəfindən qəbul edilmiş prinsiplərin mahiyyətsiz olduğunu göstərir. Bu, isə qarşıdakı müddətdə daha geniş müharibələrin başlamasına səbəb ola bilər. Belə ki, beynəlxalq prinsip, qanunlar və hüquqi normativlər mütləq şəkildə əməl edilməli və hər bir dövlətin müstəqilliyinə xələl gətirəcək hərəkətlərdən çəkindirilməlidir.

Beynəlxalq ictimaiyyətin mümkün sərt reaksiyasına baxmayaraq, Rusiya niyə Krımı işğal edib ilhaq etmək riskini üzərinə götürdü?, Rusiya bütün qərb dövlətlərini qarşısına alacaq qədər mi özünü güclü sayır? Müxtəlif suallar meydana çıxmaqdadır. Rusiya Dövlət Dumasının keçmiş deputatı İlya Ponomaryovun verdiyi açıqlamalara görə, Vladimir Putin 23 fevral 2014-cü ildə yalnız dörd yüksək

rütbəli dövlət rəsmisinin iştirak etdiyi gizli iclasda Krımın ilhaqına təkid edib və şəxsən göstəriş verib (8, s.78).

O zaman Almaniya kansleri Angela Merkel Putinlə Krım böhranı ilə bağlı telefon danışığından sonra Rusiya liderinin "başqa bir dünyada" olduğunu və "reallıqdan uzaq" olduğunu bildirmişdi (6, s.67).

Eynilə, ABŞ-ın keçmiş dövlət katibi Madlen Olbrayt 2014-cü ilin yayında CBS News-un qonağı olan məruzəçi kimi Putinin "öz dünyasında yaşadığını" söylədi (9, s.132).

Yenə də Putin və Rusiya təbliğatı başqa bir arqumentdən istifadə edərək, Ukraynada və xüsusilə Krımda etnik rusların rusca danışdıqlarına görə təqib edildiyini və məcburi assimilyasiya təhlükəsi altında olduqlarını bildirdilər. Bundan sonra Ukraynadakı etnik rus xalqının Ukrayna dövlətinin zülmündən xilas olması vurğulandı və belə bir missiya sanki Moskvanın qurtarıcı rolun da çıxış etdiyi ən böyük vəzifəsi kimi göstərildi. Həqiqət budur ki, Krımda və ya Donbasda yaşayan rusların rusca danışdıqlarına görə sıxışdırıldığını söyləmək az qala ağa-qara deməyə bənzəyir, çünki sözügedən Ukrayna bölgələrində Rusiyanın mədəni ekspansiyası 2014-cü ildən çox-çox əvvəl başlayıb və Ukraynanın o zamankı dövlət siyasəti buna qarşı idi. Məsələn, 2013-cü ildə Krımda körpələr evi və uşaq bağçalarında olan uşaqların yalnız 2,9%-i və orta məktəb şagirdlərinin 7,2%-i Ukrayna dilində təhsil alıb. Sevastopolda tədris dili ukraynaca olan yalnız bir məktəb var idi. 2013-cü ildə bütün Krımda bir dənə də olsun Ukrayna teatrı yox idi.

Krım Ukraynanın nəzarəti altında olanda belə, rus dili və "Rus dünyası" perspektivi üstünlük təşkil edirdi və bütün yerli əhaliyə, etnik ruslara və qeyri-ruslara, qarşı rus hümanistliyi təbliğ edilirdi (7, s.45).

Bununla belə, Rusiya Federasiyası yerli xalqın məcburi assimilyasiya (Ukraynalaşma) təhlükəsi altında olduğunu iddia edərək öz hərbi müdaxiləsinə haqq qazandırmaq üçün bundan istifadə etdi (11, s.34).

Ukrayna böhranından sonra ABŞ-ın Avropa qitəsinin təhlükəsizliyinin təmin edilməsində oynadığı rolun əhəmiyyəti bir daha ortaya çıxdı. ABŞ-ın hərbi və müdafiə qüdrətinə daha çox ehtiyacı olan Aİ bu baxımdan öz müdafiə qabiliyyətini inkişaf etdirməyin vacibliyini dərk edib. Məsələn, Ukrayna müharibəsindən sonra Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) Avropa qitəsinin təhlükəsizliyinin təmin edilməsində rolu yenidən gücləndi. Soyuq Müharibədən sonrakı dövrdə ilk dəfədir ki, NATO-ya üzv dövlətlər ümumi təhlükə qavrayışı qarşısında belə güclü həmrəylik nümunəsi nümayiş etdirirlər. Avropanın sərhəd təhlükəsizliyinə artan təhdid nəticəsində təhlükəsizlik yönümlü xarici siyasət yanaşması ön plana çıxmış, Avropa ölkələrinin NATO-nun müdafiə büdcəsinə ayırmalarında əhəmiyyətli artımlar olmuşdur. Məsələn, Rusiyanın Ukraynaya təcavüzü Almaniyanı hərbi yanaşmasında tarixi transformasiyaya sövq etdi. İşğalın başlamasından bir neçə gün sonra Almaniya kansleri Olaf Şolz ölkəsinin NATO-nun ümumi milli məhsulunun (ÜDM) 2 faizini müdafiə xərclərinə xərcləmək hədəfinə əməl edəcəyini açıqladı (7, s.89).

Avropa ölkələrinin büdcələrini artırmaq üçün atdıqları mühüm addımlar Avropa ölkələrinin təhlükəsizlik maraqlarına uyğundur. Aİ ilə ABŞ arasında transatlantik əlaqələrin sarsıldığı bir dönəmi yaşayarkən, Ukrayna müharibəsi gələcəyə ümid oldu. Ukrayna böhranı müttəfiq ölkələri yenidən bir araya gətirdi və göstərdi ki, onlar ümumi təhlükələr və ya münaqişələrin aradan qaldırılması sahələrində yenidən birləşə bilərlər. Məsələn, Avropa İttifaqı ölkələri Rusiya ilə müharibə vəziyyətində olan Ukraynaya hərbi dəstək üçün 500 milyon avro əlavə yardım ayırmağa razılaşıblar (2, s.45). Bundan başqa, ABŞ Xəzinədarlığı Rusiyanın işğal zamanı istifadə olunan silah və texnologiyanı inkişaf etdirmək və yaymaq qabiliyyətinə mane olmaq məqsədilə 29 fiziki şəxsə, eləcə də bir çoxunun Rusiyanın müdafiə sənayesi bazası üçün mühüm əhəmiyyət kəsb edən 70 quruma sanksiya tətbiq etdiyini bildirdi. NATO və Aİ-yə üzv dövlətlər öz əsgərlərini birbaşa Ukrayna bölgəsinə göndərməsələr də, Ukraynanın tərəfində olduqlarını və Ukraynanın mübarizəsinin haklı olduğunu və yanında olduqlarını göstərməyə çalışırlar.

Avropanın təhlükəsizliyinin NATO çətiri altında təmin edilməsi Avropanın strateji hərbi və müdafiə mexanizmlərinin qeyri-adekvatlığını daha qabarıq göstərdi. Məsələn, beynəlxalq sistemdə neytral ölkələr kimi müəyyən etdiyimiz Finlandiya və İsveç (2022) sərhədlərini Rusiyanın aqressiv davranışlarından qorumaq üçün NATO-ya üzv olmaq üçün müraciət ediblər. Ukrayna böhranı döv-

lətlərin davranışını, ənənəvi müttəfiqlik münasibətlərini və sistem daxilində qüvvələr balansını dəyişsə də, beynəlxalq təşkilatlar öz strategiyalarında dəyişikliklərə meyilli olublar.

Aİ və ABŞ arasında transatlantik bağın tədricən zəiflədiyi və hətta sarsıldığı bir dövrdən keçdiyimiz bir vaxtda yeni dövr üçün birlik transatlantik müttəfiqlik münasibətlərinin canlanmasında mühüm rol oynamışdır. 2020-ci ildə nəşr olunan "NATO 2030: Yeni Dövr üçün Birlik Hesabatında" Aİ yüksələn güclərə, xüsusilə Rusiya və Çinə qarşı vahid mövqe tutmağın vacibliyini bir daha nümayiş etdirdi və ümumi çağırışlar qarşısında birgə hərəkət etməyin vacibliyinə toxundu. 2022-ci ildə nəşr olunan "NATO 2022" Strateji Sənədi də eyni şəkildə sistem daxilində ümumi təhdidlərin artan əhəmiyyətini vurğuladı və birlikdə hərəkət etməyin vacibliyini vurğuladı. Avro-Atlantik regionun "barışıq olmadığını" bildirən o, kollektiv müdafiədə 360 dərəcə yanaşmanı müzakirə edib və alyansın üç mühüm vəzifəsini hesabata daxil edib. Xüsusilə, çəkindirmə və müdafiə, böhranın qarşısının alınması və təhlükəsizliyə əsaslanan əməkdaşlıq yanaşması sənədin əsas mövzularındandır. 2022-ci il Strateji sənədində Çinin davamlı yüksəlişi ABŞ-ın ən böyük rəqibi kimi təqdim edilib və Rusiyanın beynəlxalq sistemi destabilləşdirməyə yönəlmiş artan hərbi təşəbbüsləri qlobal nizama mümkün problemlər kimi baxılır (11, s.56).

Ukraynanın Rusiya tərəfindən işğalı iki ölkə arasında təhlükəsizlik narahatlığını artırmaqla yanaşı, Avropa və Şərqi Asiyada kollektiv müdafiə mexanizmlərini gücləndirdi və beynəlxalq sistemdə böyük dövlətlər arasında müttəfiqlik xətlərini aydınlaşdırdı. Ukraynadakı müharibə Çini Mərkəzi və Cənubi Asiyada öz təsirini genişləndirməkdə daha fəal olmağa sövq etsə də, ABŞ və Aİ-nin Rusiyaya qarşı həyata keçirdiyi sərt siyasət onu sosial və iqtisadi çətinliklərlə üz-üzə qoyub. Çin "uzaq diplomatiyasını" davam etdirmək üçün onun dinc inkişaf strategiyasını dəstəkləyir və Qərbin sanksiyalarına qarşı ehtiyatlı davranaraq Rusiyanı birbaşa dəstəkləməkdən yayınır. Ukrayna böhranı Çinin qarşılıqlı asılılıq strategiyası çərçivəsində iqtisadi və siyasi zəmində milli maraqlarına mənfi təsir göstərsə də, transatlantik ittifaq tərəfində və ittifaq daxilində yaranan parçalanma və ya böhranlar qarşısında inteqrativ rol oynadı. Ukrayna böhranı ilə Çin öz maraqları baxımından mövqeyinin nə qədər strateji olduğunu bir daha gördü. Ukrayna Çin üçün strateji əhəmiyyət kəsb etsə də, Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın münasibət və yanaşmalarını nəzərə alaraq Rusiyanın həm də strateji tərəfdaş olduğunu unutmaq olmaz. Çinin transatlantik alyans daxilində artan nüfuzu həm Ukrayna-Rusiya müharibəsi nəticəsində inkişaf edəcək siyasətlərdə, həm də bu müharibə ilə ənənəvi digərini qazanan Qərbin Rusiya ilə münasibətlərində həlledici olacaqdır. Beynəlxalq tarazlıqları dəyişmək üçün böyük səylər göstərən Çin iqtisadi zəmində mühüm gücə çevrildiyi halda, Rusiya hərbi mənada güc yarışındadır.

Nəticə. Hər iki ölkə Qərb dövlətlərinin tətbiq etdiyi sanksiyalar və beynəlxalq sistemdən təcrid olunmaq təhlükəsi ilə üzləşir. ABŞ-ın Asiya Sakit Okean qitəsində həyata keçirdiyi layihələrə cavab olaraq Çin Avropa qitəsində mövcudluğunu daha da artırmağı hədəfləyir. Çin Avropa kapital bazarını cəlb etməklə ABŞ-ın Avropa coğrafiyası üzərindəki iqtisadi üstünlüyünü öz xeyrinə çevirməyi hədəfləyir. Çin Qərbə qarşı düşmənçilik yaratmadan öz iqtisadi və regional inkişafını başa çatdırmaq, Avropa ölkələrində əhali potensialını artırmaq, iqtisadi qüdrətinə siyasi zəmində qarşılıq vermək məqsədi daşıyan təşəbbüslərdə iştirak edir. Rusiya Ukrayna-Rusiya müharibəsində enerji faktorundan yenidən şantaj elementi kimi istifadə etdikdə, Aİ ölkələri çox seçim imkanlarının olmadığını anladılar. Aİ ölkələri Rusiyadan enerji asılılığını tədricən azaltmaq və Rusiya ilə enerji əlaqələrini dayandırmaq üçün siyasət yürüdürlər. Aİ ölkələri enerji resurslarının şaxələndirilməsi ilə bağlı fikirlərini bildirsələr də, bu vəziyyətin ilk növbədə Aİ ölkələrinin vəziyyətinin gərginləşdirməsi ehtimalı var idi (7, s.45). lakin, digər alternativlərin seçilməsi qısa müddətdə vəziyyəti stabilliyi təmin etdi. Bərpa olunan enerji mənbələri AB ölkələrinin uzunmüddətli planlarına daxildir. Alternativ olaraq kömür, LNG və ya bərpa olunan enerji mənbələrinin təmin edilməsi AB ölkələrinin enerji təchizatı təhlükəsizliyi çərçivəsində variantlar olaraq görülür. Avropapərəstlik, korrupsiyaya qarşı mübarizə və demokratiya tərəfdarı idealları ilə seçilən Yanukoviçin hakimiyyətdən uzaqlaşdırılması və yeni hökumət strukturunun formalaşması ilə nəticələndi. Buna baxmayaraq, 2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı və Ukraynanın şərqində, daha doğrusu Donetsk və Luqansk bölgələrində davam edən döyüşlər Ukraynanın suverenliyinin yaradılması və qorunub saxlanması yolunda yeni maneələr yaratdı. Davam edən müharibə Ukrayna və Rusiya arasında diplomatik əlaqələrə əhəmiyyətli dərəcədə

təsir göstərərək münasibətlərin gərginləşməsinə səbəb olmuşdur. Üstəlik, bu, Ukrayna administrasiyasının sabitliyi və dözümlülüyü üçün kifayət qədər problem yaratmaqdadır.

ƏDƏBİYYAT

1. Fang, Y., et al. (2022). The Russia-Ukraine conflict and volatility risk of commodity markets. Finance Research Letters.
2. Foa, R., Mollat, M., Isha, H., Romero-Vidal, X., Evans, D., & Klassen, A. (2022). A World Divided: Russia, China and the West. Bennett Institute for Public Policy, University of Cambridge. https://doi.org/10.17863/CAM.90281
3.Kovalenko, Oksana (2017, 10 Nisan). Yak mı vtraçalı Krım. Ukrayıns'ka Pravda. - https://www.pravda.com.ua/cdn/graphics/2017/04/jak_my_vtrachaly_krym_svidchennja_pershyh_osib_ukrainy/ [24.09.2024].
4. Morkva, V. (2021). Rusya'nın 2014 İlhakı Sonrası Kırım'da Kırım Tatar Halkının Durumu. Türk Dünyası İncelemeleri Dergisi, 21(2), 375-397. - https://doi.org/10.32449/egetdid.984393
5. Motyl, A. J. (2001). "Reformulating Russian Regionalism: The Case of Ukraine." Europe-Asia Studies, 53(8), 1165-1187.
6. Motyl, A.J. (2015). "Ukraine vs. Russia: Revolution, Democracy and War." Yale University Press.
7. Plokhy, S. (2015). The gates of Europe: A history of Ukraine. Basic Books. Plokhy S.- The gates of Europe: A history of Ukraine, Basic Books publisher, 2021, p.448.
8. Putin, Vladimir. (2014, 16 Mayıs). Vstreça s predstaviteliami krımskih tatar. - http://kremlin.ru/events/ president/news/21028 [24.09.2024].
9. Ruta, M. (2022). The impact of the war in Ukraine on global trade and investment.
10. Steinbach, S. (2023). The Russia–Ukraine war and global trade reallocations. Economics Letters, 226, 111075.

РАВИД РАМАЗАНОВ
Бакинский Государственный Университет,
Магистрант II курса по специальности Мировая политика

ПРИСОЕДИНЕНИЕ КРЫМА К РОССИЙСКОЙ ФЕДЕРАЦИИ. ЗАПАДНООРИЕНТИРОВАННАЯ ПОЛИТИКА УКРАИНЫ

Как следует из названия статьи, речь идет о российско-украинской войне. В статье война посвящена проблеме защиты суверенитета и территориальной целостности государств перед лицом агрессивных действий соседних государств. Аннексия Россией Крыма и поддержка ею сепаратистских движений на востоке Украины нарушают установленные международно-правовые нормы и границы. Дело в том, что конфликт обострил отношения между Россией и западным миром, что привело к усилению напряженности и ухудшению дипломатических отношений. В нем также обсуждаются более широкие последствия российско-украинской войны для глобальной безопасности, особенно в контексте распространения оружия массового уничтожения, энергетической безопасности и стабильности международных институтов.

Ключевые слова: Конфликт, война, переговоры, кризис, международное право, конфликт, агрессия, санкции, глобальная энергетика.

RAVID RAMAZANOV
Baku State University,
Second year master's student majoring in world politics

CRIMEA ANNEXATION OF THE RUSSIAN FEDERATION. THE WESTERN-ORIENTED POLICY OF UKRAINE

As the title of the article suggests, the Russian-Ukrainian war is discussed. In the article, the war is about the problem of protecting the sovereignty and territorial integrity of the states in the face of the aggressive actions of the neighboring states. Russia's annexation of Crimea and its support for

separatist movements in eastern Ukraine violate established international legal norms and borders. The fact that the conflict has strained relations between Russia and the Western world, leading to increased tension and deterioration of diplomatic relations. It also discusses the broader implications of the Russia-Ukraine war for global security, particularly in the context of proliferation, energy security, and the stability of international institutions.

Keywords: Conflict, war, negotiations, crisis, international law, conflict, aggression, sanctions, global energy

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.f.d. Gülgün Quliyeva, s.e.d. Adil Mirabdullayev.